20 səhifə

**Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Sədri**
**cənab Anar Bağırova**

Ərizəçi-Mürsəlov Teymur İslam oğlu
*(Ünvan: Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı qəsəbəsi,*
*S.Vurğun küçəsi 41, ev 1.,Tel: 055-784-90-10)* tərəfindən

# TƏŞƏKKÜR MƏKTUBU

**Hörmətli Anar müəllim,**

Sizə bu məktubu yazmaqda məqsədim, rəhbərlik etdiyiniz Vəkillər Kollegiyasının üzvü, peşəkar və yüksək mənəvi keyfiyyətlərə sahib olan vəkil Suvarov Emin Vəfalı oğlunun göstərdiyi müstəsna hüquqi xidmət və vətəndaş məmnuniyyəti barədə məlumat vermək və kollegiya rəhbərliyinə belə kadr yetişdirdiyi üçün təşəkkürümü bildirməkdir.

Mənim maddi və mənəvi ziyanın ödənilməsi tələbi ilə bağlı qaldırdığım iddia üzrə Emin Suvarov məni ilk instansiya məhkəməsindən tutmuş, apellyasiya və nəhayət, Ali Məhkəmə mərhələsinə qədər böyük əzmlə təmsil etmişdir. İşin ən çətin anlarında belə onun nümayiş etdirdiyi hüquqi savad, sənədlərin hazırlanmasındakı dəqiqlik və məhkəmə proseslərindəki prinsipial çıxışları bu gün qələbəmi təmin edən əsas amillər olmuşdur.

Lakin Emin müəllimin fəaliyyəti təkcə quru qanun maddələri ilə məhdudlaşmadı. Mən onunla eyni qəsəbədə böyümüşəm, ailələrimiz, valideynlərimiz bir-birini tanıyır. Həmyaşıd olduğumuz üçün (1985) o, təkcə bir hüquqşünas kimi deyil, məhkəmə işimə sanki öz doğma qardaşına yardım edirmiş kimi xüsusi bir həssaslıq və hissiyatla yanaşmışdır. Onun bu insani yanaşması, uşaqlıq illərindən gələn dostluq bağlarını peşəkar fəaliyyətlə vəhdət şəklində birləşdirməsi məndə vəkillik peşəsinə olan inamı daha da artırdı.

Emin Suvarovun timsalında mən həm dərin elmi biliklərə, həm də sarsılmaz əxlaqi dəyərlərə malik bir Azərbaycan vəkilini gördüm. Onun sayəsində 2024-cü ilin avqust ayından davam edən hüquqi mübahisəmə nəhayət ki, 03.03.2026-cı il tarixində 2(1-8)-146/2026 nömrəli Ali Məhkəmənin Qərarı ilə son qoyuldu, ədalət zəfər çaldı və hüquqlarım bərpa olundu.

**Hörmətli Sədr,**

Sizdən xahiş edirəm ki, vəkillik adını şərəflə daşıyan, peşəsinə ürəkdən bağlı olan Emin Suvarovun fəaliyyətini nəzərə alasınız və ona göstərdiyi bu yüksək xidmətlərə görə öz təşəkkürünüzü və ya müvafiq həvəsləndirmə tədbirlərini çatdırasınız.

Vəkillər Kollegiyasına
Rəyasət Heyəti
Daxil olma № 1184
«10» 03 2026

İnanıram ki, belə vəkillərin karyera yüksəlişi Azərbaycan hüquq sisteminin inkişafına böyük töhfə verəcəkdir.

**Dərin hörmət və ehtiramla,**

Mürsəlov Teymur İslam oğlu

İmza: ______

Tarix: 04.03.2026